**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qətər Dövlətinin Əmək Nazirliyi arasında əmək sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qətər Dövlətinin Əmək Nazirliyi,

Bundan sonra birlikdə "Tərəflər" adlandırılacaq,

Azərbaycan Respublikası ilə Qətər Dövləti arasındakı dostluq münasibətlərinə əsaslanaraq,

İki dost ölkə arasında əmək sahəsində konstruktiv əməkdaşlığı genişləndirərək,

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qətər Dövlətinin Əmək Nazirliyi arasında səmərəli əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsinin zəruriliyinə inanaraq,

İki dost ölkə arasında müvafiq sahələrdə əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək məqsədilə təcrübə mübadiləsi aparmaq arzusunda olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində hər iki ölkənin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı əsas sahələr üzrə birgə təşəbbüsləri həyata keçirərək əməkdaşlıq edirlər:

1. əmək münasibətləri, əmək müfəttişliyi, əməyin mühafizəsi və sağlamlığı sahəsində təcrübə mübadiləsi, tədqiqatlar və səfərlər;

2. əmək sahəsinə aid qanunvericiliyin hazırlanması yolları barədə fikir mübadiləsi;

3. təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsi məqsədilə qabaqlayıcı tədbirlər üzrə təcrübə mübadiləsi, tədqiqatlar və səfərlər;

4. işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması;

5. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdiyi və razılaşdırdığı istənilən digər sahə.

**Maddə 2**

Tərəflər hər tərəfin üç nəfər üzvündən ibarət vəzifələrinə aşağıdakıların daxil olduğu Birgə Komitə yaradırlar:

1. bu Anlaşma Memorandumunun 1-ci maddəsində qeyd olunan əməkdaşlıq sahələri və bu Anlaşma Memorandumunun 3-cü maddəsinə uyğun olaraq onların həyata keçirilməsi mexanizmləri ilə bağlı fəaliyyətlərin əlaqələndirilməsi;
2. bu Anlaşma Memorandumu çərçivəsində həyata keçiriləcək gələcək birgə fəaliyyətlərin qiymətləndirilməsi və planlaşdırılması;
3. bu Anlaşma Memorandumunun müddəalarının təfsiri və onun həyata keçirilməsindən irəli gələn hər hansı çətinliklərin həlli;
4. Bu Anlaşma Memorandumuna dəyişikliklərin və/və ya düzəlişlərin edilməsi təklifi.

Birgə Komitə zərurət olduqda və ya Tərəflərdən birinin xahişi ilə Azərbaycan Respublikasında və Qətər Dövlətində hər il növbə ilə görüşür.

**Maddə 3**

Bu Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyətlərinin və ekspertlərin səfərləri ilə bağlı xərclər göndərən Tərəf tərəfindən və milli qanunvericiliyin müddəalarına uyğun olaraq ödənilir.

**Maddə 4**

Bu Anlaşma Memorandumunun müddəaları hər iki ölkədə qüvvədə olan qanun və qaydalara uyğun həyata keçirilir və onların icrası həmin qanun və qaydalara zidd hər hansı öhdəlik yaratmır.

**Maddə 5**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə dostcasına həll edilir.

**Maddə 6**

Bu Memorandum hüquqi məcburetmə qüvvəsi olan beynəlxalq müqavilə hesab edilmir. O, Tərəflər arasında əməkdaşlığın ümumi prinsiplərini müəyyən edir və onlara heç bir hüquqi öhdəliklər yaratmır.

**Maddə 7**

Bu Anlaşma Memorandumunun müddəalarına Tərəflərin qarşılıqlı yazılı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında dəyişikliklər edilə bilər. Onlar Tərəflər tərəfindən imzalandığı tarixdən tətbiq edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumu Tərəflər tərəfindən imzalandığı tarixdən tətbiq edilir.

Bu Memorandum üç (3) il müddətində qüvvədə qalır və Tərəflərdən biri onun müddətinin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti eyni müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 21 noyabr 2023-cü il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından** | **Qətər Dövlətinin Əmək Nazirliyi adından** |